# Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan alimlərini mükafatlandırdı





Özbəkistanda azərbaycanlı elm və mədəniyyət xadimləri mükafatlandırılıb. Bu barədə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev müvafiq sərəncam imzalayıb.

Sərəncama əsasən, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktor müavini, akademik Şahin Mustafayev, Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının müdiri, professor Ramiz Əskər, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr şöbəsinin müdiri Almas Binnətova "Dostluq" ordeni ilə təltif ediliblər.

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 10 sentyabr.- S. 11.**